# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA TİBB KİTABXANALARININ FORMALAŞMASI VƏ İNKİŞAFI

ZEYNALOVA H.O.
***BDU, Kitabxanaşünaslıq kafedrası, müəllim***
hicran@mail.ru

*Tədqiqatda XX əsrin əvvəllərində Azərbaycanda tibb kitabxanalarının formalaşması və inkişafı tarixi tədqiq olunur. Buraya həmçinin tibb kitabxanalarının fəaliyyətinə dair statistik göstəricilər də daxil edilmişdir.*

**Açar sözlər:** *Səhiyyə, tibb, kitabxana şəbəkəsi, tibb kitabxanaları, səhiyyə və tibb ədəbiyyatı*

Azərbaycan tibb kitabı və kitabxanalarının yaranması tarixi çox qədim dövrlərə gedib çıxır. Hələ qədim dövrlərdən Azərbaycanda elmi fikrin, o cümlədən təbabət fikrinin inkişafı tibbə dair ədəbiyyatın meydana gəlməsi və qədim kitabxanalarımızın həmin ədəbiyyatla zənginləşməsinə şərait yaratmışdır.

Xalqımızın böyük mütəfəkkirlərindən Nizaminin, Xəqaninin, görkəmli alimlərindən Bəhmənyar ibn Mərzbanın, Xətib Təbrizinin elmi dünyaya görüşlərində dövrün qabaqcıl təbabət fikirlərinin olması həmin dövrlərdə mövcud kitabxanalarda təbabət ədəbiyyatının olmasından xəbər verir.

Professor A.Xələfovun qeyd etdiyi kimi, hələ "XIII əsrin əvvəllərində... Azərbaycanda təbabətşünaslıq elmləri, riyaziyyat, tibb, astronomiya və s. xeyli inkişaf etmişdir. Hülakü sarayı ətrafında toplanmış təbiblər yeni əsərlər yaradırdılar".

Ehtimal etmək olar ki, orta əsr Azərbaycan kitabxanalarında dövrün digər elm sahələri ilə yanaşı, təbabət elminə dair də orijinal və tərcümə əsərləri olmuşdur.

Tanınmış şərqşünas alim S.N.Onullahi göstərir ki, Qazan xanın vəziri Rəşidəddin Fəzlullahın Təbriz şəhərinin yaxınlığında yaratdığı "Şəhristane Rəşidi" adlı şəhərcikdə karvansara, mədrəsə binaları ilə yanaşı, xəstəxana müəllimlər və həkimlər evi, əczaxana universiteti və müxtəlif kitabxanalar olmuşdur.

Şübhəsiz ki, həkimlər evi, müəllimlər evi və universitetin kitabxanalarında təbabət elminin nailiyyətlərini əks etdirən kitablar olmuşdur. Ş.İ.Xətai tərəfindən XVI əsrin əvvəllərində yaradılmış Təbrizdəki saray, Ərdəbildəki Şeyx Səfi məqbərəsi kitabxanasında da tibb, səhiyyə və təbabətə dair bilikləri əks etdirən kitabların olması şübhə doğurmur. Bütün bunlara baxmayaraq Azərbaycanda müstəqil tibb kitabxnalarının yaranması və şəbəkə kimi formalaşması məhz XX əsrə təsadüf edir.

1904-cü ildə Bakı fəhlələrinin məşhur oktyabr tətillərindən sonra fəhlələrin tələbi ilə neft sənayeçiləri Qurultayı Şurası Bakı şəhər Sabunçu xəstəxanasının yanında kitabxana-qiraətxana açmağa məcbur oldu. Kitabxana-qiraətxananın açılması Sabunçu fəhlələrinin böyük qələbəsi idi. Kitabxananın 1904-cü ildə rəsmi açılışı oldu. Kitabxana xəstəxananın ikinci mərtəbəsində yerləşirdi. Elə həmin vaxtdan kitabxananın yanında qiraətxana da fəaliyyət göstərməyə başladı. Lakin ayrıca ştat ayrılmadığından kitabxanaçı kimi həkimlərdən birinin həyat yoldaşı Raisa Okinşeviç Şapiro işləyirdi. Kitabxana işini sevən bu qadın uzun müddət buraya rəhbərlik etmişdir. Kitabxana həftədə 3 dəfə, gündüz saat 4-dən axşam saat 7-dək, qiraətxana isə hər gün gündüz saat 2-dən axşam saat 10-nun yarısına qədər açıq olurdu. Kitabxanadan istifadə pulsuz olduğundan, az bir müddətdə oxucuların sayı xeyli çoxalmışdı.

Sabunçu Bakının ən böyük fəhlə rayonlarından olmasına baxmayaraq, burada əhaliyə xidmət etmək üçün heç bir mədəni-maarif müəssisəsi yox idi. Ona görə də xəstəxananın ətraf məhəllələrində yaşayan əhali bu kitabxanaya müraciət etməyə başlamışdı. Şərait onun ictimai kitabxanaya çevrilməsini, bütün Sabunçu əhalisinə xidmət etməsini tələb edirdi. Tezliklə xəstəxananın rəhbərliyi Neft Sənayeçiləri Qurultayı Şurasının razılığı ilə onu ictimai kitabxana kimi bütün Sabunçu əhalisinin üzünə açdı. 1907-ci ildə kitabxana fəhlələrin tələbi ilə xəstəxananın birinci mərtəbəsində iki geniş və abad otağa köçürüldü. Bu otaqlardan birində kitabxana, digərində isə qiraətxana yerləşdirildi.

Beləliklə, kitabxanaya giriş də xəstəxanadan ayrıldı. Neft Sənayeçiləri Qurultayı Şurası kitabxanada neft fəhlələrinin geniş surətdə istifadə etməsindən, fondda inqilabi ruhlu, qabaqcıl fikirli ədəbiyyatın toplanmasından ehtiyat edərək kitabxanaya olduqca az vəsait ayırır, həmçinin kitabxanaçı ştatı vermirdi. Fəhlələrlə aparılan uzunmüddətli danışıqlardan sonra kitabxanaçı ştatı ayrıldı. Kitabxananı yeni kitablarla təmin etmək üçün vəsaitin az ayrılmasına baxmayaraq, fond toplanılan ianələrin və oxucuların hesabına zənginləşirdi. Odur ki, kitabxana qısa müddət içərisində Sabunçu neft fəhlələrinin ən çox sevdiyi mədəni müəssisələrdən birinə çevrilmişdi. Kitabxanaya gələn, onun daimi oxucuları olan inqilabçı fəhlələr onun işini öz əllərinə almış, buradan mədəni tədbirlər üçün istifadə etməyə başlamışdılar. Kitabxanaya başçılıq edən Raisa Okinşeviç Şapiro bolşevik olduğundan kitabxanada gizli inqilabi iş aparmağa başlamışdı. Bakı bolşevik təşkilatının rəhbərləri də kitabxananın tədbirlərində iştirak etməklə buradan istifadə edirdilər.

1905-1907-ci illər inqilabı dövründə kitabxana öz işini genişləndirməyə müvəffəq olmuş, oxucuların sorğularına müvafiq ədəbiyyat fondu yaratmışdı. Kitabxana fondunda çar senzurasının icazə vermədiyi





kitablar, inqilabi ədəbiyyat da saxlanılırdı. Kitabxananın gizli inqilabi fəaliyyəti haqqında məlumatı olan polis kitabxananın işini nəzarətdə saxlayır, tez-tez yoxlamalar aparırdı. İnqilabın məğlubiyyətindən sonra kitabxananın işi xeyli çətinləşmişdi. Neft Sənayeçiləri Qurultayı Şurası kitabxanaya ayrılan vəsaiti yarıbayarı azaltmışdı. Belə ağır bir şəraitdə kitabxana öz fəaliyyətini neft sənayesi fəhlələrinin maddi və mənəvi köməyi ilə davam etdirməyə müvəffəq olurdu. Kitabxana kitabların saxlanılmasında və oxuculara verilişində ənənəvi üsullarla yanaşı, qeyri-ənənəvi üsullardan da istifadə edirdi. Kitabxana fondunda ancaq oxunmasına icazə olan kitablar rəflərdə düzülüb bütün oxuculara verilirdi. İnqilabi kitablar isə gizli yerlərdə saxlanılırdı. Gizli saxlanılan kitablar isə müxtəlif işarələrlə xüsusi oxuculara verilirdi. Kitabxana Bakı İnqilab Komitəsinin inqilabi vərəqələrini, plakatlarını və s. gizli yolla yayırdı. Kitabxananın bu fəaliyyəti çar xəfiyyələrinin gözündən qaçmırdı. Onlar kitabxanaya gəlib-gedənləri həmişə nəzarət altında saxlayır, kitabxanada keçirilən kütləvi tədbirlərə göz qoyur, kitabxananın oxucu formulyarlarını və fondu vaxtaşırı təftiş edirdi.

1908-ci ilin payızında kitabxanada fəal oxucuların yığıncağı keçirilərkən polis kitaxanaya basqın etmişdi. Bu basqından xilas olmaq üçün yeganə yol kitabxananın pəncərələrindən düşüb qaçmaq idi. Oxucular bu yolla birtəhər xilas ola bilirdilər. 1905-1907-ci illər inqilabının məğlubiyyəti, irticanın başlanması kitabxananın işini olduqca çətinləşdirmişdi. Kitabxananın inqilabi fəaliyyətindən qorxuya düşən xəstəxananın rəhbərliyi də kitabxananın fəaliyyətinə müxtəlif yollarla mane olmağa çalışır, maddi cəhətdən heç bir köməklik göstərmirdi.

Lakin irtica dövrü uzun sürmədi. 1910-cu ildən, xüsusilə Lena hadisələrindən sonra inqilabi hərəkat yenidən yüksəlməyə başladı. Kitabxananın fəaliyyətində canlanma baş verdi.

Hər cür çətinliyə baxmayaraq, Neft Sənayeçiləri Qurultayı Şurasının Sabunçu xəstəxanası kitabxanası XX əsrin əvvəllərində ölkəmizdə əhaliyə kitabxana xidmətinin təşkili sahəsində mühüm işlər görməyə müvəffəq olmuşdu. Kitabxana müntəzəm olaraq öz fondunu inkişaf etdirmiş, geniş oxucu kütləsinə xidmət etməyə, əhali arasında maarifi, mədəniyyəti yaymağa çalışmışdı.

**1912-1915-ci illərdə Sabunçu kitabxanasının fondu, oxucuları və kitab verilişi**

| № | İllər | Kitabların sayı və cəmi | Oxucular | kitab verilişi | O cümlədən Azərbaycanca | |
|---|---|---|---|---|---|---|
| | | | | | Kitab | Kitab verilişi |
| 1 | 1912 | 4593 | 565 | 12792 | 70 | 158 |
| 2 | 1913 | 5365 | 359 | 16741 | 70 | 6 |
| 3 | 1914 | 5927 | 475 | 23306 | 50 | 63 |
| 4 | 1915 | 6151 | məlumat yoxdur | məlumat yoxdur | 27 | məlumat yoxdur |

Bu rəqəmlərdən göründüyu kimi, göstərilən illərdə kitabxananın fondu 1915-ci ildə 1912-ci ilə nisbətən 1558 nüsxə artmasına baxmayaraq oxucuların sayı 90 nəfər azalmışdır. Oxuculara verilən kitabların sayı isə 10514 nüsxə çoxalmışdı. Kitabxananın fondunda Azərbaycan dilində kitablar yox dərəcəsində olduğundan azərbaycanlı oxucular da lap az olmuşdur. Halbuki, Sabunçu böyük fəhlə rayonu idi və buradakı fəhlələrin əksəriyyəti azərbaycanlı fəhlələr idi. Gostərdiyimiz rəqəmlər bir tərəfdən neft sənayeçilərinin kitabxana işinə lazımi diqqət yetirməməsi, vəsait ayırmaması ilə əlaqədar idisə, digər əsas səbəb çar hökumətinin milli müstəmləkə siyasəti idi. Hökumət yerli xalqların mədəni inkişafı üçün heç bir qaygı göstərmir, milli dillərdə kitab nəşrinə, kitabxanaların fondunda milli dillərdə kitabların saxlanmasına ögey münasibət göstərirdi. Neft sənayeçilərinin kitabxananın saxlanmasına cəmi 600 manat vəsait ayırması dediklərimizi bir daha təsdiq edir.

1918-ci ilin əvvəllərində kitabxananın vəziyyəti pisləşir, bağlanmağa məcbur olur. Lakin bu, uzun çəkmir, fəhlələrin köməyi və tələbi ilə iyun ayından öz işini bərpa edir. Kitabxana böyük çətinliklə də olsa öz işini yenidən 1920-ci ilə qədər davam etdirə bilmişdir.

Sabunçu xəstəxanasının kitabxanasından başqa, xəstəxananın yanında həkimlərə xidmət etmək üçün xüsusi tibb kitabxanası-elmi kitabxana da təşkil edilmişdi. Mövcud mənbələrdə bu kitabxananın yaranmasının dəqiq tarixi göstərilməsə də, onun 1905-ci ldən sonra təşkili təxmin edilir. Həkimlər üçün təşkil edilən bu kitabxanada tibbə aid elmi və elmi-kütləvi ədəbiyyat toplanmışdı. Kitabxananın təşkilinə və inkişafına xəstəxananın rəhbərliyi qayğı ilə yanaşdığından fondda müasir tibb elminə dair xeyli ədəbiyyat





toplanmışdı. Neft sənayeçiləri kitabxanaya yeni kitab almaq üçün olduqca az vəsait–ildə cəmi 1200 manat ayırdıqlarından kitabxananın komplektləşdirilməsində xəstəxananın həkimləri yaxından iştirak edir, öz şəxsi kitablarından xeyli kitab bağışlayırdılar. Kitabxana xüsusi olduğundan buradan ancaq xəstəxananın həkimləri və tibb işçiləri istifadə edirdilər. Kitabxananın fəaliyyəti haqqında Neft Sənayeçiləri Qurultayı Şurasının hesabatlarında elmi kitabxana haqqında məlumat verilmədiyindən geniş fikir söyləmək çətindir. Təqribi məlumata görə, bu elmi kitabxananın fondunda 1920-ci ildə 951 elmi kitab olmuşdur.

1919-cu ildə Bakı Dövlət Universiteti təşkil edilərkən universitetin rektorluğu Bakı Neft Sənayeçiləri Qurultayı Şurasına muraciət edərək Sabunçu xəstəxanası kitabxanasını yeni yaradılan universitet kitabxanasına verilməsini xahiş etmişdi. Belə ki, universitetin tibb fakültəsinin tələbə və müəllimlərinin istifadəsi üçün ədəbiyyat olduqca az idi. Lakin universitetin Bakıda yaradılmasını istəməyən neft sənayeçiləri kitabxananın universitetə verilməsinə razılıq vermədi. Universitetin rəhbərliyi böyük çətinlikdən sonra bu kitabxananı 1920-ci ildə almağa muvəffəq oldu. Həmin kitabxananın kitabları universitet kitabxanasının tibb şöbəsinin əsasını təşkil edən kolleksiyalardan biri olmuşdur.

Belə ki, Azərbaycanda tibb kitabxanaları şəbəkəsinin planlı və məqsədyönlü şəkildə inkişafı XX əsrin 20-ci illərindən başlamışdır.

20-ci illərin əvvəllərində Azərbaycanda səhiyyə və tibb ədəbiyyatı fondları əsasən 3 kitabxanada cəmləşdirilmişdir. Bunlar hələ XIX əsrin sonunda yaranmış Bakı Həkimlər Cəmiyətinin Kitabxanası, Mixaylovski və Sabunçu xəstəxanalarının kitabxanaları idi.

Statistik materiallara görə, bu kitabxanaların fondunda 3849 adda kitab və 92 adda rus və Avropa dillərində olan müxtəlif dövri orqanlar var idi. Eyni zamanda tibb ədəbiyyatı cüzi miqdarda Bakı Neft Sənayesi Qurultayı Cəmiyyətinin Kitabxanasında da mövcud idi. Bütün bunlar 20-30-cu illərdə Azərbaycanda tibb kitabxanaları şəbəkəsinin yaranması və formalaşması üçün müəyyən qədər zəmin yaradırdı.

Şübhəsiz ki, sovet hakimiyyəti illərində Azərbaycanda tibb və səhiyyənin inkişafı istiqamətində həyata keçirilən mütərəqqi tədbirlər, xüsusən bu sahədə kadr hazırlığı istiqamətində aparılan işlər tibb işçilərinə xidmət edən xüsusi kitabxana şəbəkəsinin yaranmasını tələb edirdi. Qeyd etmək lazımdır ki, hələ 20-ci illərin əvvəllərində Azərbaycanın yeni formalaşan səhiyyə sahəsində 135 müxtəlif tibb müəssisəsi fəaliyyət göstərirdi ki, bu müəssisələrdə 500-ə qədər müxtəlif səviyyəli mütəxəssis və işçi çalışırdı.

20-ci illərin əvvəllərində Azərbaycanda yüksəkixtisaslı tibb işçilərinin hazırlanması işi ilə əsasən Bakı Dövlət Universitetinin tibb fakültəsi məşğul olurdu. Bunun üçün BDU-nun Elmi Kitabxanasında tibb ədəbiyyatı fondunun

yayılması çox vacib məsələ idi. "1920-ci ildə universitetin xahişi ilə Azərbaycanda Sovet hökuməti keçmiş Mixaylovski və Sabunçu xəstəxanasının kitabxanalarını universitetin kitabxanasına verdi. Burada tibbə dair qiymətli kitablar var idi. Bu kitabların əsasında kitabxananın tibb şöbəsi təşkil edildi. Bu şöbə təşkil edilərkən onun 212 cild kitabı var idi. Daha sonra A.Xələfov göstərir ki, kitabxananın tibb ədəbiyyatı fondunun zənginləşdirilməsi məqsədilə o dövrdə Bakıda fəaliyyət göstərən həkimlərdən Xodoroviç, Fayerman, Levin və s. öz şəxsi kitabxnalarını universitetin kitabxanasına vermişdir".

Azərbaycanda tibb kitabxanalarının tarixi ilə məşğul olmuş dosent Nadir İsmayılov göstərir ki, 20-ci illərdə universitet kitabxanasını zənginləşdirmək üçün yaranmış xüsusi komissiya tərəfindən Bakı şəhərinin müxtəlif təşkilatlarından 120 min, Tbilisi şəhərindən isə 18 mln. manatlıq müxtəlif elm sahələrinə dair ədəbiyyat almışdır ki, bunların içərisində xeyli tibb ədəbiyyatı da var idi.

Məşhur həkim-alim, BDU-nun tibb fakülətisinin yaradıcılarından biri professor N.İ.Şirokoqorov hələ 1982-ci ildə dərc olunmuş oçerklərində yazır ki, universitetin tibb fakültəsinin yaranması xarici ölkələrdən kitab və jurnalların alınması çox çətin vaxtlara təsadüf etməsinə baxmayaraq, son vaxtlar bu sahəyə dövlət vəsaitinin artırılması nəticəsində fakültəyə tibbə dair bütün rus jurnallarının və 36 sayda xarici jurnalları almaq mümkün olmuşdur.

Prof. N.Şirokoqorovun eyni adlı oçerklərindən məlum olur ki, 20-ci illərdə BDU-nun tibb fakültəsinin nəzdindəki ümumi kitabxana ilə yanaşı, onun ayrı-ayrı kafedralarının nəzdində ixtisaslaşdırılmış kitabxanalar olmuşdur.

Müəllifin qeyd etdiyi kimi, 1927-ci ildə Normal Anatomiya kafedrasının kitabxanasında 235 kitab, Sosial Gigiyena kafedrasının kitabxanasında isə Bakı sanitariya maarifi evindən alınmış xeyli ədəbiyyat cəmləşdirilmişdir.

Ölkədə ali təhsil sistemində aparılan islahatlarla əlaqədar, Azərbaycan Xalq Komissarlar Sovetinin 9 may 1930-cu il qərarına əsasən BDU-nun tibb fakültəsi bazasında müstəqil Azərbaycan Dövlət Tibb İnstitutu yarandı. Bununla fakültənin əsas və yardımçı kitabxanaları Tibb İnstitutunun elmi kitabxanasının əsasını qoydu.

Onu da qeyd edək ki, əgər 1919-cu ildə Bakı Dövlət Universiteti təşkil edilən ildə tibb fakultəsinin nəzdindəki kitabxanada cəmi 2 min nüsxəyə yaxın kitab vardırsa, 1940-cı ildə Tibb İnstitutu kitabxanasında 100 min nüsxədən artıq sənəd-informasiya fondu formalaşmışdı. Bu zəngin kitabxana fondunun formalaşmasına xidmət edən ən mühüm amillərdən biri həmin ildən kitabxana tərəfindən SSRİ-də nəşr olunan tibb ədəbiyyatının pullu məcburi nüsxəsi idi. Eyni zamanda kitabxana ölkədaxili və beynəlxalq kitab mübadiləsinin ildən-ilə genişlənməsi onun informasiya sərvətlərinin inkişafına əsaslı təsir





göstərirdi. Təkcə bir faktı göstərmək kifayətdir ki, 1940-cı ildə tibb institutunun kitabxanası keçmiş SSRİ-nin 175 və xarici ölkələrin 62 təşkilatı ilə kitab mübadiləsi aparırdı.

20-ci illərdə başlayaraq Azərbaycanda səhiyyə işləri və tibb elminin inkişafına xidmət edən kitabxanalar içərisində 1923-cü ildə əsası qoyulmuş M.F.Axundov adına Dövlət Kitabxanasının da xeyli xidmətləri olmuşdur. Yarandığı ildən universal milli kitabxana kimi formalaşmağa başlayan bu kitabxanada bütün elm sahələri ilə yanaşı, tibb və səhiyyə problemləri ilə əlaqədar zəngin kitab fondu formalaşmağa başlamışdı. Kitabxananın oxucuları içərisində həkimlər, tibb sahəsində çalışan təcrübi işçilər, eləcə də tibb təhsil müəssisələri tələbələri az deyildi.

Bu fikri əsası 1924-cü ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Kitabxanası haqqında da söyləmək olar.

Bilavasitə tibb kitabxanaları şəbəkəsinə gəldikdə isə bu işin təşəkkülündə 20-ci illərdə Azərbaycanda meydana gələn tibb və səhiyyə problemləri ilə məşğul olan ilk elmi-tədqiqat müəssisələri kitabxanalarını da xüsusi qeyd etmək lazımdır.

Məlum olduğu kimi, 20-ci illərdə Azərbaycanda səhiyyə və tibb elmləri sahəsində yaranan ilk elmi-tədqiqat müəssisəsi Mikrobiologiya və Gigiyena İnstitutu olmuşdur. Bu elmi tədqiqat institutunun əsası 1923-cü ildə qoyulmuşdur.

1926-cı ildə peşə xəstəlikləri, ana və uşaq müdafiəsi, 1928-ci ildə sanitariya-epidomologiya, 1931-ci ildə tropika, 1936-cı ildə kurortologiya və müalicənin fiziki metodları elmi-tədqiqat institutları yaranmışdır.

Azərbaycanda səhiyyə və tibb sahəsində elmi kitabxanalar şəbəkəsinin yaranması və formalaşması, demək olar ki, bu elmi tədqiqat müəssisələrin nəzdində yaranan kitabxanalar ilə başlanmışdır. 20-30-cu illərdə Azərbaycanda yaranmış bu və ya digər tibb elmi-tədqiqat institutlarının kitabxanaları ölkədə səhiyyə və tibb istiqamətlərində aparılmağa başlayan ilk elmi araşdırmaların sənəd-informasiya təminatının formalaşmasında əvəzsiz rol oynamışlar. Bu kitabxanalarda öz dövrünün müasir tibb elminin ən yeni nailiyyətlərini əks etdirən dünya ədəbiyyatı mühafizə edilirdi.

Məsələn, Sanitariya-Epidemiologiya Elmi-Tədqiqat İnstitutunun Kitabxanasında o dövrdə respublikamızda sanitariya-epidemioloji xidmətin elmi-nəzəri əsasları, xidmətin təşkili, Azərbaycanda sanitariya-epidemik şəraitin öyrənilməsi, sanitariya dövlət nəzarət sisteminin formalaşması, əhalinin yaşayış yerlərinin sanitariya vəziyyətinin formalaşması, əhalinin yaşayış yerlərinin sanitariya vəziyyətinin yaxşılaşdırılması, sanitariya cihazlarınım yaradılması və s. istiqamətlərdə aparılan elmi-tədqiqat işlərinə dair yüzlərlə Azərbaycan, rus və digər xarici dillərdə nəşr edilmiş kitablar, dövri orqanlar və digər sənədlər toplanmışdır.

On dörd şöbəsi və laboratoriyası olan Kulturologiya və Fiziki Üsullarla Müalicə Elmi-Tədqiqat İnstitutunun Kitabxanasında formalaşmış fondun tərkibində təbii amillərin müalicə xüsusiyyətləri, orqanizmə təsir mexanizmi, fizioterapiya, kurort şəraitinin öyrənilməsi, kurort-sanitariya müəssisələri tikilməsinin elmi əsaslarını əks etdirən müxtəlif tipli elmi, məlumat ədəbiyyatı, dövri orqanlar və normativ sənədlər cəmləşdirilmişdi. 30-cu illərin sonunda Azərbaycanda səhiyyə və tibb problemləri ilə məşğul olan 5 elmi tədqiqat institutunun kitab fondunda 42 min nüsxədən artıq müxtəlif ədəbiyyat var idi ki, bunlardan 2 minə qədər oxucu istifadə edirdi.

30-cu illərin ikinci yarısında Azərbaycanda səhiyyə sisteminin sürətlə inkişaf etməsi nəticəsində tibb ədəbiyyatına tələbat getdikcə güclənirdi.

1940-cı ildə Azərbaycan səhiyyə işçilərinin sayına görə keçmiş SSRİ-də ən qabaqcıl yerlərdən birini tuturdu. Belə ki, həmin il SSRİ-də orta hesabla 1400 adama 1 həkim düşürdüsə, Azərbaycanda isə hər 1087 adama 1 həkim düşürdü. Respublikada 3300 həkim, 222 müalicə müəssisəsi, 12 min nəfərlik çarpayı var idi. Həmin il tibb sahəsi üzrə elmi-tədqiqat müəssisələrində 2000 elmi işçi çalışırdı. Dövlət Tibb İnstitutunda çalışan professor-müəllim heyətinin ümumi sayı 233 nəfər idi. Bütün bunlar 30-cu illərin ikinci yarısında səhiyyə və tibb elmləri sahəsində çalışan çoxminli mütəxəssislərin informasiya tələbatının genişləməsinə və daha da mürəkkəbləşməsinə səbəb olmuşdu.

Cəmiyyətdə səhiyyə və tibb elmlərinə dair sənəd–informasiya tələbatının genişlənməsi, eləcə də ildən-ilə tibb kitabxanaları şəbəkəsinin artması respublikada bu kitabxanaların fəaliyyətinin əlaqələndirilməsi və metodik təminatı ilə əlaqədar müvafiq işlərin həyata keçirilməsi zərurətini irəli sürürdü. Bu vəzifələri yalnız Azərbaycanda tibb sahəsində baş kitabxana-biblioqrafiya və metodik mərkəz statusuna malik olan Respublika Elmi Tibb Kitabxanası yerinə yetirə bilərdi. Belə kitabxananın yaranması haqqında Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı 1939-cu ilin 23 noyabrında oldu.

"Azərbaycan SSR-də Dövlət Elmi Tibb Kitabxanasının yaradılması haqqında" Xalq Komissarları Sovetinin qərarında deyilirdi: "elmi tibb işçilərinə tibbə dair dövrü mətbuat və kitab xidmətini yaxşılaşdırmaq, kitab fondlarından səmərəli isitifadə etmək və tibb kitabxanaları şəbəkəsinin fəaliyyətini nizama salmaq məqsədilə Azərbaycan SSR Xalq Komissarları Soveti qərara alır:

1. Bakı Səhiyyə şöbəsi Sanitariya Mədəniyyət Evinin Kitabxanası əsasında Azərbaycan SSR Səhiyyə Komissarlığının yanında Dövlət Elmi Tibb kitabxanası təşkil edilsin".

Kitabxana bilavasitə oxuculara xidmət işinə 1940-cı ilin əvvəllərində başladı. Şübhəsiz ki, Azərbaycanda ümumrespublika əhəmiyyətli Elmi Tibb





Kitabxanasının yaranması ölkəmizin tibb ictimaiyyəti üçün olduqca əlamətdar hadisə idi.

Bu kitabxananın qarşısında Azərbaycanda tibb elminin və səhiyyənin bütün sahələrinə dair vətən və xarici ədəbiyyatı toplamaq, tibb və səhiyyə işçilərinə xidmət etmək və eləcə də respublikada formalaşan tibb kitabxanaları şəbəkəsinin fəaliyyətini istiqamətləndirmək vəzifələri dururdu.

Qeyd etmək lazımdır ki, 1939-cu ildə Dövlət Elmi Tibb Kitabxanasının yaradılması ilə Azərbaycanda tibb kitabxanaları şəbəkəsinin formalaşması, təşkilatlanması əsasən başa çatdırıldı və tibb kitabxanaları şəbəkəsinin sistemli fəaliyyəti üçün əlverişli şərait yarandı.

1940-cı ildə Azərbaycanda formalaşan tibb kitabxanaları şəbəkəsi özündə əsasən aşağıdakı kitabxanaları birləşdirirdi.

1. Dövlət Elmi Tibb Kitabxanası-1
2. Naxçıvan MSSR Tibb Kitabxanası-1
3. Şəhər Tibb Kitabxanası-1
4. Tibb İnstitutu Kitabxanaları-2
5. Tibb Elmi-Tədqiqat İnstitutları Kitabxanaları-5

Bu kitabxanaların ümumi fondu 180 min nüsxəyə yaxın idi.

Beləliklə, Azərbaycanda kitabxana işi tarixində 1920-1940-cı illər tibb kitabxanaları şəbəkəsinin yaranması və formalaşması dövrü sayıla bilər.

Professor A.Xələfovun elmi yaradıcılığında "Azərbaycanda Kitabxana işinin tarixi", "Kitabxanşünaslığa giriş", professor X.İsmayılovun "Azərbaycan kitabxanalarının metodiki təminat sistemi" adlı monoqrafiyasında, professor Z.Əliyevin Azərbaycan biblioqrafiyasının yaranması və inkişafı tarixinə həsr olunmuş namizədlik dissertasiyasında, "Azərbaycan biblioqrafiyasının tarixi", "Ümumi biblioqrafiyaşünaslıq" dərs vəsaitlərində və bir sıra elmi məqalələrində bu sahənin inkişafından da bəhs edilmişdir.

Bundan başqa tibb ədəbiyyatının biblioqrafiyası mövzusu dosent N.İsmayılovun elmi yaradıcılığında mühüm yer tutmuş və o, bu sahədə dissertasiya işi müdafiə etmiş, bir sıra məqalələr dərc etdirmiş və bu elmi tədqiqat araşdırmalarının nəticələri bu gün də müntəzəm olaraq dərc etdirilir. Dosent N.İ.İsmayılovun "Təbabət üzrə məhəlli kitabxana-biblioqrafiya ehtiyatlarının inkişafı, müasir vəziyyəti və təkmilləşdirilməsi yolları" mövzusunda namizədlik dissertasiyasında və bir sıra elmi məqalələrində Respublika Elmi Tibb Kitabxanasının biblioqrafik fəaliyyətindən ətraflı bəhs olunmuş və həmçinin bu kitabxanaya xeyli müddət rəhbərlik etmiş R.S. Perelmanın 1978-ci ildə "Советская библиография" jurnalında dərc etdirdiyi bir məqalədə müəyyən məlumat vermişdir.

Cəmiyyətdə səhiyyə və tibb elmlərinə dair sənəd-informasiya tələbatının genişlənməsi, eləcə də ildən-ilə tibb kitabxanaları şəbəkəsinin

artması respublikada bu kitabxanaların fəaliyyətinin əlaqələndirilməsi və metodik təminatı ilə əlaqədar müvafiq işlərin həyata keçirilməsi zərurətini irəli sürürdü. Bu vəzifələri yalnız Azərbaycanda tibb sahəsində baş kitabxana-biblioqrafiya və metodik mərkəz statusuna malik olan Respublika Elmi Tibb Kitabxanası yerinə yetirə bilərdi. Azərbaycan Dövlət Respublika Elmi Tibb Kitabxanası Azərbaycan Respublikası Xalq Komissarları tərəfindən verilmiş 29 noyabr 1939-cu il qərarına əsasən təşkil edilmişdir. Kitabxana 1940-cı ildən real fəaliyyətə başlamışdır. Onun ilk direktoru M.Səmədova olmuşdur.

1. Kitabxana səhiyyə müəssisələri sisteminə daxildir və Səhiyyə Nazirliyinin tabeliyindədir.
2. Səhiyyə orqanlarını, elmi-tədqiqat və müalicə-profilaktika müəssisələrini xalqın sağlamlığı problemlərini, sosial-gigiyena və səhiyyənin təşkili, klinik və profilaktik təbabət, sanitar-epidemioloji və səhiyyənin, tibb elminin digər problemləri ilə məşğul olan alim və mütəxəssisləri kitabxana-biblioqrafiya və informasiya ilə vaxtında təmin edir, səmərələşdirici təkliflər təqdim edir.
3. Azərbaycan Respublikasında tibb kitabxanaları şəbəkələrinə təşkilatı-metodik rəhbərliyi və onların əlaqəli fəaliyyətini həyata keçirmək, elmi-təqiqat institutlarının, ali və orta tibb təhsil müəssisələrinin elmi tibbi informasiya şöbələrinin fəaliyyətinə metodiki və koordinasiyası üzrə rəhbərliyi həyata keçirir.
4. Sahəvi depozitar kitabxana və tibb elminin aktual problemləri üzrə vahid sorğu-məlumat fondlarını təşkil edir.
5. Məcburi pulsuz nüsxələr alır.
6. Tibb və farmakologiyaya dair dissertasiya avtoreferatlarının milli mühafizəçisidir.
7. Tibb ədəbiyyatı üzrə dövlət depozitar fonduna malikdir.
8. Vahid dövlət kitabxanalararası abonemet sisteminin iştirakçısıdır.
9. Xüsusi ictimai əhəmiyyətə malik olan mədəni-maarif müəssisəsidir.

Kitabxananın qarşısına qoyulan tələbləri aşağıdakı kimi ümumiləşdirmək olar:

- müəyyən tip kitabxananın işinin həcminə və məzmununa uyğunluq;
- operativ olaraq yeni materiallarla təkmilləşmək və öz əhəmiyyətini itirmiş, az istifadə olunan, bir-birini təkrar edən mənbələrdən azad olmaq;
- digər kitabxanalarla və elmi-texniki məlumat orqanları ilə öz profillərinə uyğun işi əlaqələndirmək məqsədilə müqavilə bağlamaq;
- tərkib hissələrinin vahidliyini saxlamaq, onlar arasında qarşılıqlı əlaqəni gücləndirmək, onların bir sistem kimi təkmilləşdirilməsinə təsir göstərmək.





Soraq-biblioqrafiya aparatından istifadə olunmaqla həyata keçirilən vəzifələr çox müxtəlif olub, kitabxananın fəaliyyətinin bütün istiqamətləri ilə bağlıdır.

Respublika Elmi Tibb Kitabxanasında oxucu tərkibinin müxtəlifliyi kitabxananın soraq-biblioqrafiya aparatının istər məzmununa, istərsə də quruluşuna öz təsirini göstərir. Bu hal müəyyən məsələlərə dair ədəbiyyatın soraq-biblioqrafiya aparatında daha geniş əks olunmasına, xüsusi kataloq və kartotekaların yaradılmasına, soraq-məlumat fondunun mükəmməl komplektləşdirilməsinə səbəb olmuşdur.

Əsasən kitabxanada zəngin kitab fondunun, təbabətin müxtəlif sahələrinə dair informasiya nəşrlərinin məzmununu işıqlandıran, hansı müəssisənin, müəyyən müəllifin hansı əsərləri olduğuna cavab verən, kitabxanada hansı adda kitab, jurnal, qəzet və digər sənədlərin olduğunu açıb göstərən, informasiya istifadəçilərinin sorğularını hərtərəfli ödəməyə imkan verən soraq-biblioqrafiya aparatı yaradılmışdır.

Soraq-biblioqrafiya aparatının mühüm tərkib hissələrindən olan soraq-biblioqrafik nəşrlər fondu ümumi fondun bir hissəsi olub oxucu zalında yerləşdirilmişdir. Burada əsasən kitabxananın biblioqrafik fəaliyyətinə yaxından köməklik göstərən müxtəlif nəşrlər toplanmışdır. Adətən, soraq-biblioqrafik nəşrlər fonduna direktiv xarakterli materiallar, məlumat nəşrləri və biblioqrafik nəşrlər daxil edilir. Respublika Elmi Tibb Kitabxanasının soraq-biblioqrafiya xidmət işi Azərbaycan Səhiyyə Nazirliyinin tədqiqat işlərinin planına əsaslanır. Kitabxanada tibb ədəbiyyatı üzrə toplu kataloqların, ölkə ədəbiyyatına və xarici ədəbiyyatlara aid soraq-məlumat materiallarının olması oxucuların tələbatlarını kifayət dərəcədə operativ yerinə yetirməyə imkan verir.

Kitabxananın soraq-biblioqrafiya aparatının mühüm tərkib hissələrindən biri də kataloq və kartoteka sistemidir. Kitabxananın kataloq-kartoteka sisteminə aşağıdakılar daxildir:

1. Əlifba kataloqu (Azərbaycan və rus dillərində)
2. Sistemli kataloq (Azərbaycan və rus dillərində)
3. Dissertasiya və avtoreferatların əlifba kataloqu
4. Məqalələrin sistemli kartotekası(48).

Kitabxanada xarici dillərdə olan ədəbiyyat haqqında biblioqrafik məlumat ayrıca kataloq yeşiyində əlifba və sistemli qaydada qruplaşdırılıb verilmişdir.

Kitabxanada tərtib olunmuş əlifba kataloqu müəllif və sərlövhə üzrə axtarışı asanlaşdırırsa, sistemli kataloq mövzu üzrə axtarışı təmin etmiş olur.

Dissertasiyaların və avtoreferatların əlifba kataloqu tibb sahəsi üzrə müdafiə olunmuş dissertasiyalar haqqında biblioqrafik informasiyanı əks

etdirir. Burada kartoçkalar tibb elminin ayrı-ayrı sahələri üzrə ayrılmış, daxildə isə əks xronoloji prinsip əsasında düzülmüşdür.

Soraq-biblioqrafiya aparatının mühüm komponentlərindən biri də biblioqrafik kartotekalardır. Kartotekalarda geniş miqyasda müxtəlif nəşrlərdən materialların analitik təsviri verilir. Onlar bir tərəfdən soraq-biblioqrafiya aparatının müstəqil hissəsi olub, ona daxil olan sənədlərin mövzusuna, məzmununa və növünə, məqsəd və oxucu istiqamətinə və digər parametrlərə görə tez-tez dəyişə bilər.

Digər tərəfdən isə kartotekalar kitabxananın vahid kataloq və kartoteka sisteminə daxil olub, kataloqlara əlavə kimi tərtib olunur, onların axtarış imkanlarını genişləndirir, kitabxananın fondunu müxtəlif aspektlərdən açır, sistemli kataloqun təsnifat sxemində əks olunmayan aktual mövzular üzrə ədəbiyyatı ayırmağa imkan verir.

Respublika Elmi Tibb Kitabxanasında tərtib olunmuş kartotekalardan biri "Məqalələrin sistemli kartotekası"dır. Bu kartotekada tibb elminə, səhiyyənin müxtəlif sahələrinə dair qəzet və jurnallarda dərc olunmuş materiallar əks olunmuşdur. Bu kartotekanın tərtibi üçün kitabxanaya daxil olan dövri mətbuat nüsxələri nəzərdən keçirilir və müvafiq materiallar təsvir olunaraq kartotekada əks olunur. Kartotekanın köhnə materiallardan təmizlənərək redaktə olunması da daim diqqət mərkəzindədir.

Kartotekada materiallar sistemli kataloqdakı kimi sistemli qaydada qruplaşdırılır, bölmələr daxilində isə əlifba üzrə düzülür.

## ƏDƏBİYYAT

1. *Xələfov A. Azərbaycanda kitabxana işinin tarixindən.-B., 1986 - S.20*
2. *Xələfova A. Azərbaycanda kitabxana işinin tarixindən.- B.,2007.- s.64-68*
3. *Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi.– B., 1983.- S.197*
4. *Основные показатели развития здравоохранения// Народное хозяйство Азерб.ССР, к 60 летию Великого октября. Юбилейный статистический ежегодник. – Б., 1977. – С.241*
5. *Каталог фундаментальной библиотеки для служащих совета съезда Бакинских нефтепромышленников. - Б., 1911. -. С.96*
6. *Народное хозяйство Азерб. ССР за 60 лет. -Б., 1980.-. С.314*
7. *Xələfov A. Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932). - B., 1960. -S.112*
8. *Исмайлов Н.И. Развитие, современное состоение и пути совершенствования региональных библиотечно-библиографических ресурсов по медицине. / на материалах Азерб. ССР. Диссертация на соискание ученой степени канд.пед.наук. - М., 1987. – С.95*
9. *Широкогоров Н.Н. Медицинский факультет Азерб. Гос. Университета: Исторический очерки. // Журнал теории и практики медицины.– 1927. – т. 2-Кн. 5-6.–С.1-24;1928. – т.3. – Кн. 1-2. – С. 25-130*
10. *Великий октябрь – расцвет науки Советского Азербайджана. -. Б.: Елм, 1977. -. С.276*
11. *Состояние и перспективы развитие фондов библиотек системы здравоохранения. – М., 1975. – С. 137-138.*
12. *Ибрагимов М. Здравоохранения Советского Азербаджане. – М., 1967. С. 157*
13. *Хронологическое собрание законов Азерб.ССР. указов президиума Верховного Совета и постановлений праватеьство Азерб. ССР, т.2. – С.132*





## ФОРМИРОВАНИЕ И РАЗВИТИЕ МЕДИЦИНСКИХ БИБЛИОТЕК В НАЧАЛЕ XX ВЕКА

**ЗЕЙНАЛОВА Х.О.**

***РЕЗЮМЕ***

*В исследование исследуется история формирования и развития медицинских библиотек в начале XX века. Статья также включает в себе статистические данные о деятельности медицинских библиотек.*

***Ключевые слова:*** *Здоровье, библиотечная сеть, медицинские библиотеки, здравоохранение и медицинская литература*

## FORMATION AND DEVELOPMENT OF MEDICAL LIBRARY IN THE EARLY XX CENTURY

**ZEİNALOVA H.O.**

***SUMMARY***

*In the study explores the history of the formation and development of medical libraries in the early twentieth century. The article also includes statistics the activity of the medical libraries.*

***Keywords:*** *Health, medical, library network, medical libraries, public health and medical literature*